**Kristal Bakı ASC İllik Hesabat Forması**

2.1.1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi;

**Kristal Bakı ASC 3103396091 19.03.2020**

2.1.2. Emitentin hüquqi ünvanı və olduğu yer;

**Hüquqi ünvan – AZ 0100, Abşeron rayonu, Xırdalan Şəhəri, H.əliyev Pr. (xırdalan), ev 11, mənzil 2**

**Olduğu yer - Abşeron rayonu, Xırdalan Şəhəri, H.əliyev Pr. (xırdalan), ev 11, mənzil 2**

2.1.3. Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları;

**Ad dəyişikliyi, hüquqi şəxsin bölünməsi, yenidən təşkili icra edilməmişdir.**

2.1.4. Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;

**Hər hansı filial və ya nümayəndəlik yaradılmamışdır.**

2.1.5. Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;

**CİTY BAKU MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ, Məhdud Məsuliyyətli Cəmiyyət , Bakı şəh.,Səbail rayonu, Kövkəb xanım Səfərəliyeva,ev 64**

2.1.6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;

**Hər hansı şirkətlər qrupunun bir hissəsi deyildir.**

2.1.7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri

Mənzil tikintisi üzrə fəaliyyət

2.1.8. Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri

Fəaliyyət növləri:

1. Xüsusi torpaq işləri:

1.1. Ankerlərin torpağa bərkidilməsi və binaların "torpaqda divar" üsulu ilə tikilməsi;

1.2. Enmə quyuların va kessonların qurulması;

2. Beton va dəmir-beton konstruksiyaların quraşdırılması;

3. Metal konstruksiyaların quraşdırılması;

4. Ağac konstruksiyaların quraşdirlması;

5. Fasad işləri;

9. Yol tikintisi;

9.4. nəqliyyat tunelləri və metropolitenlər;

11. Xüsusi qurğuların tikintisi va quraşdırılması;

11.2. rezervuarlar və qazholderlər (qaz anbarları) ;

12. Sənaye və mülki obyektlərin tikintisi;

12.1 Aşırımı 24 metrədək;

12.2 Aşırımı 24 metr və daha çox;

12.3 hündürlüyü 65 metrədək;

12.4 hündürlüyü 65 metr və daha çox;

12.5 tutumu 5 min nəfərədək;

12.6 tutumu 5 min nəfər və daha çox;

EL-287/2021 qeydiyyat nömrəli 26 İyul 2021-ci il tarixli lisenziya, müddətsiz.

2.1.9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər

Yaşayış binalarının tikintisi.

2.1.10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası

**2024-cü il I rüb** – İlin əvvəlində 700 nəfər işçi olub, 308 nəfər işə götürülmüşdür, 206 nəfərə xitam verilmişdir, rüb sonuna qalıq işçi sayı – 802 nəfər;

**2024-cü il II rüb** –450 nəfər işə qəbul edilmiş, 331 nəfərə xitam verilmişdir, rüb sonuna qalıq işçi sayı – 921 nəfər;

**2024-cü il III rüb** –488 nəfər işə qəbul edilmiş, 374 nəfərə xitam verilmişdir, rüb sonuna qalıq işçi sayı – 1035 nəfər;

**2024-cü il IV rüb** –481 nəfər işə qəbul edilmiş, 262 nəfərə xitam verilmişdir, rüb sonuna qalıq işçi sayı – 1254 nəfər.

2.1.11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı

**İdarəetmə orqanı Direktor – Dostumalıyev İbrahim Cəfər oğlu**

2.1.12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı;

**12. Fiziki şəxs- 3 nəfər**

2.1.13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrıayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı;

**Vəliyev Pərviz Ağalar oğlu x 500 000 manat 500 000 ədəd Adi adlı səhm (50 faiz)**

**Nəbiyev Fərid Elburus oğlu x 250 000 manat 250 000 ədəd Adi adlı səhm (25 faiz)**

**Nəbiyev Araz Məhayət oğlu x 250 000 manat 250 000 ədəd Adi adlı səhm (25 faiz)**

2.1.14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı);

**Hüquqi şəxs pay sahibi deyildir.**

2.1.15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat

2.1.15.1. yığıncağın keçirilmə tarixi və yeri (ünvan);

**03.06.2024 – cü il, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər Əliyev PR. (XIRDALAN) , ev.11, mənzil 2**

2.1.15.2. Ümumi yığıncaqda qəbul edilmiş qərarlar.

**1.** "Kristal Bakı" ASC-nin 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə audit hesabatına əsasən cəmi məcmu zərər ( 15 453 198 AZN ) qənaətbəxş hesab edilsin;

**2.** "Kristal Bakı"" Açıq Səhmdar Cəmiyyətinin hər birinin nominal dəyəri 1 (bir) manat olan 990 000 (doqquz yüz doxsan min) ədəd adi, adlı, sənədsiz səhmlər buraxılsın;

**3.** "Kristal Bakı" ASC-nin 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat, kapitalda dəyişikliyi və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın, eləcə də əsas mühasibat prinsipini və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının Müstəqil Auditor tərəfindən audit yoxlanması aparılsın;

**4.** İdarə heyət və digər rəhbər orqanlarla bağlı dəyişikliklərə baxılsın

**5.** Səhmdarlar Cəmiyyətin Nizamnaməsi və Mülki Məcəllə ilə müəyyən edilmiş hüquqlara malikdir.

2.1.16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir)

2.1.16.1. İnvestisiya qiymətli kağızın növü və forması;

**Adi adlı səhm**

2.1.16.2. İnvestisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;

**AZ1001022255 saylı 17.10.2024-ci il tarixli.**

2.1.16.3. İnvestisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;

**1 000 000 ədəd, bir ədədi 1 (bir) manat olmaqla.**

2.1.16.4. investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri;

**1000 000*1=1000 000**

2.1.16.5. hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir)

**Divident ödənişi edilməmişdir.**

2.1.16.6. Faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;

**Faizli istiqraz buraxılışı yoxdur.**

2.1.16.7. İnvestisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda)

**"Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti**

2.1.17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:

**Hər hansı əqd yoxdur.**

2.1.17.1. əqdin məbləği;

**Əqd bağlanılmayıb.**

2.1.17.2. Hesabat tarixinə əqdin ödənilməmiş hissəsi.

**Əqd bağlanılmayıb.**

2.1.18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:

**Əqd bağlanılmayıb.**

2.1.18.1. Bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;

**Əqd bağlanılmayıb.**

2.1.18.2. Aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi.

**Əqd bağlanılmayıb.**

2.1.19. İllik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi;

**30.06.2025-ci il**

2.1.20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat.

**citygarden.az**

**Direktor:** **Dostumalıyev İbrahim Cəfər oğlu**

“Kristal Bakı ” ASC

31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı

**MÜNDƏRİCAT**

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

MÜSTƏQİL AUDİTORUN HESABATI

MALİYYƏ HESABATLARI:

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ..................................... 4

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT ..................................... 5

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ..................................... 6

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ..................................... 7

MALİYYƏ HESABATLARINA DAİR QEYDLƏR ..................................... 8-47

## MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI
## 31 DEKABR 2024-CÜ İL TARİXDƏ BİTƏN İL ÜZRƏ

Göstərilən bəyanət, "Kristal Bakı " ASC-nin (bundan sonra "ASC") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik , 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və təxminlərin qəbul edilməsi;
- MHBS-nın tələblərinə riayət edilməsi və kənarlaşmalar tapıldığı zaman onların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti;
- Əgər ASC normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- ASC daxilində səmərəli vəkeyfiyyətli daxili nəzarət sisteminin hazırlanması, təşkili;
- ASC maliyyə hesabatlarının MHBS-yə uyğun hazırlanması və ASC-nin maliyyə vəziyyəti istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sistminin qanunvericilik və Azərbaycan Respublikasında mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək ASC-nin aktivlərinin qorunmasının təmin edilməsi və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması

31 dekabr 2024-cü il tarixinə başa çatmış il üzrə maliyyə hesabatları ASC-nin rəhbərliyi tərəfindən 30 iyun 2025-cü il tarixində təsdiq edilmişdir.

Rəhbərlik tərəfindən:

| | |
|---|---|
| ______________________________ | ______________________________ |
| İbrahim Dostumalıyev | Gültac Nərimanbəyli |
| Direktor | Aparıcı mühasib |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

"KRİSTAL BAKI" ASC-nin Səhmdarlarına və Rəhbərliyinə:

**Şərti rəy**

Biz "KRİSTAL BAKI" Açıq Səhmdar Cəmiyyətinin (bundar sonra "Cəmiyyət") 31 dekabr 2024-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatının və həmin tarixlərdə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabatın, kapitalda dəyişikliklər haqqında hesabatın və pul vəsaitlərinin hərəkəti haqqında hesabatın, eləcə də əsas uçot siyasətinin və digər izahedici məlumatların xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

Bizim rəyimizcə, "Şərti rəyin bildirilməsi üçün əsas" bəndində açıqlanan məsələlərin mümkün təsirləri istisna olmaqla, hazırkı maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixlərdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**Şərti rəy bildirilməsi üçün əsas**

Biz Cəmiyyətin auditoru kimi 08 may 2025-cü il tarixində təyin edildik və buna görə də 31 dekabr 2024-cü il tarixinə 24.131.761 AZN mal-material ehtiyatlarının fiziki inventarizasiyasını müşahidə edə bilmədik. Biz digər audit prosedurlarını tətbiq etməklə 31 dekabr 2024-cü il tarixinə mal-material ehtiyatlarının kəmiyyətinə dair əminlik əldə edə bilmədik. Mal-material ehtiyatlarının qalıqları maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətinin müəyyən edilməsi prosesinin bir hissəsi olduğu üçün biz mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda göstərilmiş 31 dekabr 2024-cü il tarixində bitən il üzrə zərərlə bağlı və pul vəsaitlərinin hərəkəti haqqında hesabatda göstərilmiş əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitlərinin hərəkəti ilə bağlı hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilmədik.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün müəyyən etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq biz Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti**

Rəhbərlik hazırkı maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Cəmiyyəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Cəmiyyətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bütövlüklə, saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya məcmu halda maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir etmə ehtimalı olsun.

Beynəlxalq Audit Standartlarının tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparıldığı zaman peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi nümayiş etdiririk. Biz həmçinin:

- Saxtakarlıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkarlanmaması riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq, gizli sövdələşmə, saxtakarlıq, dələduzluq, məlumatların bilərəkdən göstərilməməsi, həqiqətə uyğun olmayan şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Şirkətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün vacib olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.
- İstifadə edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların məqsədəuyğunluğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair qənaətə bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər ASC-nin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.
- Cari audit zamanı istifadə olunan əvvəlki hesabat dövrünə aid maliyyə məlumatları digər audit təşkilatı tərəfindən təqdim edilmiş audit rəyinə əsaslanır. Bu məlumatların düzgünlüyünə və audit nəticələrinə görə məsuliyyət həmin audit təşkilatına məxsusdur.

  Biz digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

30 iyun 2025-ci il
Bakı, Azərbaycan Respublikası

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | **Qeyd** | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-ci il** |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əmlak,tikili və avadanlıqlar | 8 | 8.371.260 | 7.604.220 |
| Uzunmüddətli aktivlər üçün avans ödənişləri | 11 | 23.768.533 | 12.328.343 |
| Təxirə salınmış vergi aktivləri | 30 | 22.498.212 | 9.660.277 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 10 | 99.714.394 | 96.567.733 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **154.352.399** | **126.160.573** |
| | | | |
| **Cari aktivlər** | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 9 | 539.136 | 446.752 |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 10 | 26.110 | 46.155.314 |
| Avans ödənişləri | 11 | 1.331.969 | 11.620.298 |
| Debitor borclar | 12 | 15.179.634 | - |
| Vergi üzrə debitor borc | 13 | 31.450.729 | 7.778.714 |
| Tikilməkdə olan mal-material ehtiyatı | 14 | 441.709.502 | 223.365.823 |
| Mal-material ehtiyatları | 14 | 24.131.761 | 29.470.908 |
| Digər aktivlər | 15 | 456 | 202.313 |
| **Cəmi cari aktivlər** | | **514.369.297** | **319.040.122** |
| | | | |
| **CƏMİ AKTİVLƏR** | | **668.721.696** | **445.200.695** |
| | | | |
| **Öhdəliklər** | | | |
| **Cari öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borclar | 16 | 34.760.414 | 26.022.890 |
| Qısamüddətli borc vəsaitləri | 17 | 15.124.682 | 32.525.924 |
| Mənfəət vergisi öhdəliyi | | 14.218.300 | 2.197.428 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | 18 | 1.258.336 | 492.575 |
| Digər öhdəliklər | | - | 220.242 |
| **Cəmi cari öhdəliklər** | | **65.361.732** | **61.459.059** |
| | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli borc vəsaitləri | 17 | 166.316.432 | 76.139.394 |
| Təsisçilərdən alınmış borc öhdəlikləri | 19 | 142.316.995 | 74.817.296 |
| Alınmış avanslar | 20 | 327.135.582 | 262.906.246 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **635.769.009** | **413.862.936** |
| | | | |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **701.130.741** | **475.321.995** |
| | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 21 | 1.000.000 | 10.000 |
| Yığılmış zərər | | (33.409.045) | (30.131.300) |
| **CƏMİ KAPİTAL** | | **(32.409.045)** | **(30.121.200)** |
| | | | |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **668.721.696** | **445.200.695** |

30 iyun 2025-ci il tarixində Cəmiyyətin rəhbərliyi adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

İbrahim Dostumalıyev
Direktor

Gültac Nərimanbəyli
Aparıcı mühasib

8-45-cü səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.



tgs AZERBAIJAN Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31 dekabr 2024-cü il tarixində bitən il | 31 dekabr 2023-ci il tarixində bitən il |
|---|---|---|---|
| Gəlirlər | 22 | 58.376.348 | 51.517 |
| Maya dəyəri xərcləri | 23 | (39.458.232) | (35.505) |
| **Ümumi mənfəət** | | **18.918.116** | **16.012** |
| İnzibati və ümumi xərclər | 24 | (11.649.797) | (14.955.594) |
| Digər gəlir | 25 | 841.243 | - |
| Sair əməliyyat xərcləri | 26 | (260.417) | - |
| Məzənnə fərqindən yaranmış zərər | | (651.930) | (62.797) |
| **Əməliyyat zərəri** | | **7.197.215** | **(14.876.785)** |
| Maliyyə xərcləri | 27 | (20.060.549) | (12.527.580) |
| Faiz gəliri | 28 | 8.768.526 | 7.715.296 |
| **Vergidən əvvəlki zərər** | | **4.094.808** | **(19.689.096)** |
| Mənfəət vergisi | 29 | 817.064 | 4.235.871 |
| **İl üzrə cəmi məcmu zərər** | | **(3.277.745)** | **(15.453.198)** |

30 iyun 2025-ci il tarixində Cəmiyyətin rəhbərliyi adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

İbrahim Dostumalıyev
Direktor

Gültac Nərimanbəyli
Aparıcı mühasib

8-45-cü səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.



tgs AZERBAIJAN
Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | **Nizamnamə kapitalı** | **Yığılmış zərər** | **Cəmi kapital:** |
|---|---|---|---|
| **31 dekabr 2021-ci il tarixinə** | **10.000** | **(2.705.607)** | **(2.695.607)** |
| İl üzrə cəmi məcmu zərər | - | (11.972.495) | (11.972.495) |
| **31 dekabr 2022-ci il tarixinə** | **10.000** | **(14.678.102)** | **(14.668.102)** |
| İl üzrə cəmi məcmu zərər | - | (15.453.198) | (15.453.198) |
| **31 dekabr 2023-cü il tarixinə** | **10.000** | **(30.131.300)** | **(30.121.300)** |
| Nizamnamə kapitalında artım | 990.000 | - | 990.000 |
| İl üzrə cəmi məcmu zərər | - | (3.277.745) | (3.277.745) |
| **31 dekabr 2024-cü il tarixinə** | **1.000.000** | **(33.409.045)** | **(32.409.045)** |

30 iyun 2025-ci il tarixində Cəmiyyətin rəhbərliyi adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

İbrahim Dostumalıyev
Direktor

Gültac Nərimanbəyli
Aparıcı mühasib

8-45-cü səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.



tgs AZERBAIJAN
Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 31 dekabr 2024-cü il tarixində bitən il üzrə | 31 dekabr 2023-ci il tarixində bitən il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətləri:** | | | |
| Vergidən əvvəlki zərər | | (4.094.808) | (19.689.069) |
| **Qeyri-pul maddələri üzrə düzəlişlər:** | | | |
| Əmlak, tikili və avadanlıq üzrə köhnəlmə xərcləri | 8 | 1.947.968 | 806.387 |
| Maliyyə xərcləri | 27 | 20.060.549 | 12.527.580 |
| Faiz gəliri | 28 | (8.768.526) | (7.715.296) |
| Məzənnə fərqindən (gəlir)/ zərər | | 651.930 | (62.797) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **9.797.113** | **(14.133.195)** |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | | |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri | 10 | 42.982.543 | (84.464.523) |
| Avans ödənişləri | 11 | (1.151.861) | (11.097.962) |
| Alıcı və sifarişçilərin debitor borcu | 12 | (15.179.634) | - |
| Vergi üzrə debitor borc | 13 | (23.672.015) | (3.525.372) |
| Tikilməkdə olan mal-material ehtiyatı | 14 | (218.343.678) | (122.087.782) |
| Mal-material ehtiyatları | 14 | 5.339.147 | (22.763.094) |
| Digər aktivlər | 15 | 201.857 | (202.240) |
| Ticarət və digər kreditor borclar | 16 | 8.737.525 | 14.534.380 |
| Alınmış avanslar | 20 | 64.229.336 | 175.331.900 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | 18 | 545.519 | 28.332 |
| Digər öhdəliklər | | - | 109.556 |
| **Vergidən və faizdən əvvəl əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **(126.514.150)** | **(68.270.000)** |
| Ödənilmiş faizlər | | (14.475.231) | (7.452.254) |
| **Əməliyyat fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | | **(140.989.381)** | **(75.722.254)** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitləri** | | | |
| Əmlak, tikili və avadanlıqların alınması | 8 | (2.715.008) | (4.708.650) |
| Məhdudiyyət qoyulmuş pul vəsaitləri üzrə faiz daxilolmaları | | 8.768.526 | 7.715.296 |
| **İnvestisiya fəaliyyətindən daxil olan/ (istifadə olunan) xalis pul vəsaitləri** | | **6.053.518** | **3.006.646** |
| **Maliyyələşdirmə fəaliyyətindən pul vəsaitləri** | | | |
| Müddətli borc vəsaitlərindən daxilolmalar | 17 | 100.355.832 | 77.358.213 |
| Təsisçilərdən alınan borc vəsaitləri üzrə daxilolma | 19 | 81.283.517 | 41.002.531 |
| Borc vəsaitlərin qaytarılması | 17 | (28.176.791) | (26.328.704) |
| Təsisçilərdən alınan borc vəsaitlərinin qaytarılması | 19 | (18.772.381) | (22.496.000) |
| Nizamnamə kapitalında artım | 21 | 990.000 | - |
| **Maliyyələşdirmə fəaliyyətində daxil olan xalis pul vəsaitləri** | | **135.680.177** | **69.536.040** |
| Məzənnə fərqinin pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə təsiri | | (651.930) | (50.753) |
| **Pul və pul vəsaitlərində xalis (azalma)/ artım** | | **92.384** | **(3.230.322)** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlinə** | 9 | **446.752** | **3.677.073** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna** | | **539.136** | **446.752** |

30 iyun 2025-ci il tarixində Cəmiyyətin rəhbərliyi adından imzalanmış və buraxılış üçün təsdiqlənmişdir.

İbrahim Dostumalıyev
Direktor

Gültac Nərimanbəyli
Aparıcı mühasib

8-45-cü səhifələrdə əks etdirilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissələridir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

## 1. Cəmiyyət və onun əsas fəaliyyəti

"KRİSTAL BAKI" ASC (bundan sonra “Cəmiyyət”) Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq 19 mart 2020-ci il tarixində 2 saylı Ərazi Vergilər Baş İdarəsi tərəfindən 3103396091 №-li VÖEN ilə qeydiyyata alınmış və Azərbaycan Respublikasının normativ hüquqi aktlarına uyğun olaraq yaradılmışdır. Cəmiyyət səhmlərlə məhdudlaşdırılmış məhdud məsuliyyətli cəmiyyətdir və səhmlərinin 50%-i Vəliyev Pərviz Ağalar oğluna, 25%-i Nəbiyev Fərid Elbrus oğluna, 25%-i isə Nəbiyev Araz Mahayət oğluna məxsusdur.

31 dekabr 2024-cü il tarixində bitən il üzrə Cəmiyyətə yekun nəzarəti Cənab Vəliyev Pərviz həyata keçirir.

**Əsas fəaliyyəti:** mülki, Cəmiyyətin əsas fəailiyəti sənaye və ictimai obyektlərin tikinti işlərini yerinə yetirməkdir.

**Cəmiyyətin qeydiyyat ünvanı:** Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev prospekti, 30-cu məhəllə, ev 11, mənzil 2.

## 2. Cəmiyyətin əməliyyat mühiti

2024-cü ildə Azərbaycanda iqtisadi artım 4,1% olub. Ümumi Daxili Məhsul (ÜDM) 126,3 milyard manat təşkil edərək, əvvəlki illə müqayisədə 4,1% artıb. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,3%, qeyri-neft-qaz sektorunda isə 6,2% artıb.

ÜDM istehsalının sektoral bölgüsü belədir: sənaye 35,9%, ticarət və nəqliyyat vasitələrinin təmiri 10,7%, nəqliyyat və anbar təsərrüfatı 7,0%, tikinti 6,7%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq 5,7%, turistlərin yerləşdirilməsi və ictimai iaşə 2,4%, informasiya və rabitə 1,9%, digər sahələr isə 19,9% paya sahib olub. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,8%-ni təşkil edib.

Əhalinin hər nəfərinə düşən ÜDM 12 382,5 manata bərabər olub.

Valyuta ehtiyatları 72 milyard dollardan çox, daxili dövlət borcu 17.6% artaraq 18 milayrd 659,7 milyon manat, xarici borcu isə 20.1% (və ya 1 milyard 301.2 milyon ABŞ dolları) azalaraq 5 milyard 160 milyon dollar (və ya 2024-cü il üzrə ÜDM-in 6,9 faizi) təşkil etmişdir. Ümumilikdə, Azərbaycanın dövlət borcu 27 milyard 431,1 manat olub ki, bu da əvvəlki illə müqayisədə 2.2% və ya 580.7 milyon manat çoxdur.

2024-cü ildə dövlət büdcəsinin gəlirləri 36388,0 milyon manat proqnoza qarşı 37164,2 milyon manat təşkil etmişdir ki, bu da proqnozla müqayisədə 776,2 milyon manat və ya 2,1 faiz, 2023-cü illə müqayisədə isə 5,5 faiz və ya 1927,8 milyon manat çoxdur. Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert nəzərə alınmadan dövlət büdcəsinin gəlirləri proqnoza nisbətən 3,3 faiz çox icra edilməklə 24383,2 milyon manat təşkil edib. 2024-cü ildə dövlət büdcəsinin xərcləri isə 6,5% artaraq 37 milyard 719,7 milyon manat və ya təsdiq olunmuş proqnoza qarşı 2 milyard 22,6 milyon manat (5,1 faiz) az icra edilib. Hesabat ilində icrası təmin edilmiş xərclər 2024-cü ilin dövlət büdcəsi xərclərinin 94,9 faizini təşkil edib. Dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə nəzərdə tutulmuş 4855,8 milyon manat vəsaitin 99,4 faizi və ya 4828,5 milyon manatı sifarişçi təşkilatlar tərəfindən istifadə olunub. Dövlət büdcəsinin kəsiri isə 555,5 milyon manat təşkil edib, 2023-cü ildə bu rəqəm 883,7 milyon manat idi.

2024-cü ildə də Azərbaycanın valyuta bazarında sabitlik müşahidə olundu və manatın ABŞ dollarına qarşı məzənnəsi dəyişmədi. AMB-nin valyuta ehtiyatları təxminən 5% azaldığı halda, ARDFN-nın aktivləri 10% artaraq 62 milyard ABŞ dollarını keçdi. Fond 30 tona yaxın qızıl alaraq bu qiymətli metala qoyduğu investisiyaların məbləğinə görə, dünyada ilk 5-likdə qərarlaşdı.

Azərbaycanın maliyyə sabitliyini qorumaq və iqtisadi inkişafı dəstəkləmək məqsədi ilə ilin gedişində faiz dəhlizinin parametrləri 8 dəfə dəyişdirilərək uçot dərəcəsi 8%-dən 7,25%-ə, faiz dəhlizinin yuxarı həddi 9%-dən 8,25%-ə, aşağı həddi isə 6,5%-dən 6,25%-ə endirildi.

Azərbaycan Mərkəzi Bankı Dünya Bankının dəstəyi ilə “Yaşıl Taksonomiya”-nı təsdiqlədi və ölkənin bank sektoru iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində 2 milyard manatlıq yaşıl maliyyələşdirmə öhdəliyi götürdü.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

## 2. ASC-nin əməliyyat mühiti (davamı)

Azərbaycan Respublikası öz ərazi bütövlüyünü təmin ediyindən eibarən işğaldan azad edilmiş ərazilərə yeni investisiyaları təşviq etmiş və yenidən qurma üçün dövlət vəsaiti ayırmışdır. Belə ki, Qarabağ və Şərqi Zəngəzur regionunun bərpa və yenidənqurma işləri üçün 2021-ci ildə 2,2 milyard, 2022-ci ildə 2,7 milyard manat vəsait ayrılıb. 2023-cü ilin büdcəsində isə işğaldan azad olunmuş ərazilərin bərpası üçün ötən illə müqayisədə 13 faiz daha çox, yəni 3 milyard manat nəzərdə tutulub. 2024-cü ildə isə bu məbləğ 5 milyard AZN-dən çox olmuşdur.

İşğaldan azad edilmiş ərazilərə sosial-iqtisadi həyatın geri qaytarılmasında özəl sahibkarlar əhəmiyyətli rol oynayır. Dövlət həmin ərazilərə yerli və xarici biznes nümayəndələrinin investisiya qoyması üçün əlverişli mühitin yaradılmasını prioritet istiqamətlərdən biri kimi götürüb. Bu məqsədlə 2022-ci il noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənib. Proqramın əsas hədəf göstəricilərindən biri azad olunmuş ərazilərdə iqtisadiyyatın yenidən qurulması üçün yeni investisiyaların cəlb olunması ilə sahibkarlıq mühitinin formalaşdırılmasıdır. Sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək də Dövlət proqramının əsas məqsədlərindəndir.

Qarabağ və Şərqi Zəngəzurda sahibkarlıq fəaliyyətini təşviq etmək üçün hökumət artıq bir sıra mühüm addımlar atıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin məlumatına əsasən, bu il yanvarın 1-dək işğaldan azad edilmiş ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq üçün agentliyə 1339 müraciət daxil olub. Müraciətlərin əhəmiyyətli hissəsi, yəni 873-ü yerli, 466-sı isə 37 ölkəni əhatə edən xarici müraciətlərdir. Türkiyə, Rusiya, Qazaxıstan və Macarıstandan olan sahibkarlar Qarabağ və Şərqi Zəngəzurda investisiya qoymağa xüsusən maraqlıdırlar. Dövlət tərəfindən müəyyənləşmiş sahibkarlığa dəstək mexanizmləri qısa müddətdə bu ərazilərdə biznes fəaliyyəti ilə məşğul olmaq istəyən hüquqi və fiziki şəxslərin sayını artıracaq.

Dövlətin planlı və mərhələli şəkildə apardığı bərpa prosesinin ilk mərhələsi olan ərazilərin minalardan təmizlənməsi Azərbaycan Ordusunun şanlı Zəfərindən dərhal sonra başlanılıb. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin məlumatına görə, 2020-2022-ci illərdə 57,6 min hektar ərazi minalardan təmizlənib. Həmçinin qeyd edək ki, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın birinci prioritetinin birinci istiqaməti işğaldan azad olunmuş 280 min hektar ərazinin 2022-2026 –ci illərdə minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsini nəzərdə tutur. Bununla həmin ərazilər bütövlükdə tam təhlükəsiz yaşayış və sosial-iqtisadi həyatın bərpası üçün uyğun olacaq.

Həmin ərazilərdə investisiya mühitinin qurulması üçün növbəti mərhələ sayılan fiziki infrastrukturun böyük hissəsi artıq qurulub. İşğaldan azad olunmuş ərazilər elektrik enerjisi ilə tam təmin olunub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ölkənin vahid enerji şəbəkəsinə qoşulub. Nəqliyyat infrastukturu tam sürətlə bərpa olunmaqla, ölkənin digər şəhər və rayonlarının yol infrastukturu ilə birləşdirilir. Region üçün xüsusi əhəmiyyət kəsb edən Tərtər–Çaylı–Suqovuşan-Talış, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun (Zəfər yolu) və Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun tikintisi artıq başa çatdırılıb. Digər avtomobil yollarının tikinti və bərpasının 2026-cı ilin sonunadək başa çatdırılması nəzərdə tutulub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ilə təmin olunması məqsədilə dövlət proqramında su anbarlarının, suvarma və paylayıcı kanalların, nasos stansiyalarının, subartezian quyularının, hidroqovşaqların və digər su təsərrüfatı obyektlərinin mərhələli şəkildə təmiri, bərpası və yenilərinin tikintisinin 2026-cı ilin sonunadək yekunlaşdırılması planlaşdırılıb. Postkonflikt ərazilərində artıq iki beynəlxalq hava limanı fəaliyyət göstərir. Üçüncü aeroportun - Laçın hava limanının tikintisinin isə iki il ərzində başa çatdırılacağı gözlənilir..



tgs AZERBAIJAN
Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

## 3. Əsas uçot siyasəti

### Maliyyə hesabatlarının hazırlanmasının əsası

Cəmiyyətin hazırkı maliyyə hesabatları Mühasibat Uçotunun Beynəlxalq Standartları Komitəsinin (“MUBSK”) buraxdığı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq hazırlanmışdır. Hazırkı maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilmiş əsas mühasibat uçotu prinsipləri aşağıda təqdim olunur. Həmin prinsiplər təqdim olunmuş bütün dövrlərə ardıcıl qaydada tətbiq edilmişdir. Hazırkı maliyyə hesabatlarında bütün məbləğlər, başqa cür qeyd edilmədiyi halda, Azərbaycan Manatı (“AZN”) ilə təqdim edilir.

Maliyyə hesabatları ilkin dəyər metoduna əsasən tərtib edilmişdir.

### Fasiləsizlik prinsipi

Maliyyə hesabatları Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini normal şərtlər altında davam etdirəcəyi ehtimalı nəzərə alınaraq hazırlanmışdır.

Rəhbərlik hesab edir ki, Cəmiyyət yaxın gələcəkdə ləğv olunacağına, habelə fəaliyyətini dayandırmağa və ya Azərbaycan Respublikasının Qanunları və ya normativ aktları əsasında kreditorlara qarşı müdafiə axtarışına istək və ya ehtiyac olmadan fəaliyyətini davam etdirəcək.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Cəmiyyətin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olduğu fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Maliyyə hesabatları standartları, Rəhbərlik tərəfindən Cəmiyyətun davamlılıq prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri nəzərə alınmalı olan müəyyən məsələləri və daimilik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Davamlılıq prinsipi təxminlərin Rəhbərlik tərəfindən dəyərləndirilməsi zamanı naməlum olan gələcək hadisələr və ya şərtlər üzrə müəyyən fərziyyələrin edilməsi vacibdir.

### Cari və uzunmüddətli təsnifat

Maliyyə vəziyyəti haqqında hesabatda aktiv və öhdəlikləri cari/ uzunmüddətli təsnifat əsasında təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv kimi təsnif edilir:

- Normal əməliyyat dövründə satılması gözlənilir və ya satılması və ya istifadəsi planlaşdırılır;
- Əsasən ticarət məqsədləri üçün saxlanılır;
- Hesabat tarixindən on iki ay sonra reallaşdırılması gözlənilir; və ya
- Hesabat tarixindən sonra ən azı on iki ay ərzində öhdəliyi ödəmək üçün mübadiləsi və ya istifadəsi məhdudlaşdırıldığı hallar istisna olmaqla pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentidir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Cari və uzunmüddətli təsnifat (davamı)**

Bütün digər aktivlər uzunmüddətli aktivlər kimi təsnif edilir.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik kimi təsnif edilir:

Normal əməliyyat dövründə ödənilməsi gözlənilir;

- Əsasən ticarət məqsədləri üçün saxlanılır;
- Hesabat tarixindən sonra on iki ay ərzində ödənilməlidir; və ya
- Hesabat tarixindən sonra ən azından on iki ay ərzində öhdəliyin ödənilməsini təxirə salmaq üçün şərtsiz hüquq yoxdur.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli öhdəliklər kimi təsnif edir.

**Xarici valyutanın çevrilməsi**

Cəmiyyətin funksional valyutası Azərbaycan Manatıdır.

Cəmiyyətin funksional valyutasından fərqli olan valyutalarla aparılan və Cəmiyyətin funksional valyutası ilə ölçülməmiş əməliyyatları aşağıdakı şəkildə çevrilir:

- Cəmiyyətin müvafiq müəssisəsinin funksional valyutası ilə ölçülməyən aktiv və öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatın tarixinə qüvvədə olan yekun məzənnəyə əsasən həmin müəssisənin funksional valyutasına çevrilir;
- Hər bir mənfəət və ya zərər və digər ümumi gəlir haqqında hesabat üzrə gəlir və xərclər orta məzənnə ilə yenidən qiymətləndirilir (həmin orta məzənnə əməliyyat tarixinə məzənnələrin məcmu təsirinə əsaslı şəkildə yaxın olmadıqda, gəlir və xərclər əməliyyat tarixinə qüvvədə olan məzənnə ilə çevrilir).

Cəmiyyətin müvafiq müəssisələrinin funksional valyutalarında yenidən ölçülmə nəticəsində yaranan məzənnə gəlir və zərərləri mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatında tanınır.

Cəmiyyət hazırkı maliyyə hesabatlarının hazırlanmasında 31 dekabr 2024-cü il və 31 dekabr 2023-cü il tarixinə olan aşağıdakı rəsmi xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| | **31 dekabr 2024-cü il** | **31 dekabr 2023-cü il** |
|---|---|---|
| 1 ABŞ dolları | 1.7000 | 1.7000 |
| 1 Avro | 1,7724 | 1,8766 |
| 1 Rus Rublu | 0,0163 | 0,0188 |


tgs AZERBAIJAN Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları**

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərdə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər ölçmə tarixində bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı aktivin satılmasından alına bilən və ya öhdəliyin köçürülməsinə görə ödənilə bilən məbləğdir. Ədalətli dəyər ölçülərkən aktivin satılması və ya öhdəliyin köçürülməsi əməliyyatının aşağıdakı yerlərdən birində aparılması ehtimal edilir:

- aktivin və ya öhdəliyin əsas bazarı; və ya
- əsas bazar olmayanda, aktivin və ya öhdəliyin ən əlverişli bazarı.

Cəmiyyətin əsas və ya ən əlverişli bazara çıxışı olmalıdır. Aktivin və ya öhdəliyin ədalətli dəyəri bazar iştirakçıları aktivi və ya öhdəliyi qiymətləndirərkən istifadə etdiyi fərziyyələri istifadə etməklə ölçülür və ehtimal edilir ki, bazar iştirakçıları bu zaman öz hərəkətlərində ən yaxşı iqtisadi mənafelərini güdürlər.

Qeyri-maliyyə aktivinin ədalətli dəyəri ölçülərkən bazar iştirakçısının, aktivi maksimal və ən yaxşı şəkildə istifadə etməklə və ya həmin aktivi maksimal və ən yaxşı şəkildə istifadə edəcək digər bazar iştirakçısına satmaqla, iqtisadi fayda əldə etmək qabiliyyəti nəzərə alınır.

Cəmiyyətin mövcud şəraitdə münasib olan və ədalətli dəyəri ölçmək üçün kifayət qədər məlumatları olan, müvafiq bazar məlumatlarını maksimal istifadə edən və müşahidə edilməyən məlumatların istifadəsini minimuma endirən qiymətləndirmə üsullarını istifadə edir.

Maliyyə hesabatlarında ədalətli dəyəri ölçülən və ya təqdim edilən bütün aktivlər və öhdəliklər ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında ədalətli dəyər iyerarxiyasının daxilində aşağıda təsvir olunan kateqoriyalara bölünür:

- Səviyyə 1 – Oxşar aktivlər və ya öhdəliklər üçün fəal bazarlarda kvotasiya edilmiş (təshih edilməmiş) qiymətləri mövcud olanlar.
- Səviyyə 2 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları birbaşa və ya dolayısı ilə müşahidə edilən qiymətləndirmə üsulları.
- Səviyyə 3 – Ədalətli dəyərin ölçülməsi üçün əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları müşahidə edilməyən qiymətləndirmə üsulları.

Maliyyə hesabatlarında dövri şəkildə tanınan aktivlər və öhdəliklər üçün Cəmiyyət hər hesabat dövrünün sonunda kateqoriyalara bölməni yenidən qiymətləndirərək iyerarxiyanın daxilində Səviyyələr arasında köçürmələrin baş verib-vermədiyini müəyyən edir (ədalətli dəyərin ölçülməsi üçün ümumiyyətlə əhəmiyyətli olan ən aşağı səviyyəli giriş məlumatları əsasında).

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Maliyyə alətləri – əsas qiymətləndirmə üsulları (davamı)**

*İlkin dəyər* alış tarixinə aktivi almaq üçün ödənilmiş pul vəsaitləri və ya pul vəsaitləri ekvivalentlərinin məbləğini və yaxud verilmiş digər resursların ədalətli dəyərini əks etdirir və əməliyyat xərclərini ehtiva edir. İlkin dəyərlə qiymətləndirmə yalnız bazar qiymətləri olmayan və ədalətli dəyəri etibarlı şəkildə ölçülə bilməyən pay alətlərindəki investisiyalara tətbiq edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə bağlıdır. Əlavə xərclər əməliyyatın həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri əməliyyat xərclərinə daxil edilmir.

*Amortizasiya olunmuş maya dəyəri* əsas məbləğin qaytarılmasını çıxmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri (GKZ) üçün ehtiyatı çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya olunmuş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilən faiz dərəcəsidir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir. İlkin tanınma zamanı alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşmiş aktivlər üçün effektiv faiz dərəcəsi kredit riski nəzərə alınaraq uyğunlaşdırılır, yəni müqavilə üzrə ödənişlər deyil, ilkin tanınmada gözlənilən pul vəsaitlərinin hərəkətinə əsasən hesablanır.

**Maliyyə aktivləri**

***İlkin tanınma və ölçmə***

Maliyyə aktivləri ilkin tanınmada sonradan amortizasiya hesablanmış dəyərlə, digər ümumi gəlir (DMG) vasitəsilə ədalətli dəyərlə tanınan aktivlər və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi təsnifləşdirilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Maliyyə aktivləri (davamı)**

***İlkin tanınma və ölçmə (davamı)***

İlkin tanınmada maliyyə aktivlərinin təsnifatı maliyyə aktivləri üzrə müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin xüsusiyyətlərindən və Cəmiyyətin bunları idarə etmək üçün seçdiyi biznes modeldən asılıdır. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Cəmiyyətin praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları istisna olmaqla Cəmiyyət ilk öncə maliyyə aktivlərini ədalətli dəyərlə ölçür və ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən alətlər kimi tanınan aktivlər üçün əməliyyat xərclərini əlavə edir. Əhəmiyyətli maliyyələşdirmə komponentinin daxil olmadığı və ya Cəmiyyətin praktik vasitənin tətbiq etdiyi ticarət debitor borcları 15 saylı MHBS əsasında müəyyənləşdirilən əməliyyat qiyməti ilə ölçülür.

Maliyyə aktivinin amortizasiya dəyəri ilə və ya DMG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi və ölçülməsi üçün qalan əsas məbləğ üzrə yalnız əsas məbləğin və faizlərin ödənilməsini ("YƏMFÖ") təşkil edən pul vəsaitlərinin hərəkəti yaradılmalıdır. Bu qiymətləndirməyə "YƏMFÖ testi" deyilir və bu, hər bir alət üzrə ayrıca aparılır.

Cəmiyyətin maliyyə aktivlərini idarə etmək üçün seçdiyi biznes modeli, onun pul vəsaitlərinin hərəkətini yaratmaq məqsədilə maliyyə aktivlərinin idarəedilməsi metodunu təsvir edir. Başqa sözlə, Cəmiyyətin biznes modeli pul vəsaitlərinin hərəkətinin müqavilədən, maliyyə aktivlərinin satışından və ya onların hər ikisindən yaranacağını müəyyən edir.

Qanunvericiliklə və ya bazar razılaşmaları ilə ümumi şəkildə müəyyən edilmiş müddət ərzində aktivlərin çatdırılmasını tələb edən maliyyə aktivlərinin alınması və ya satılması əməliyyatları alqı-satqı tarixində, yəni Cəmiyyət aktivi almaq və ya satmaq öhdəliyini üzərinə götürdüyü tarixdə tanınır.

***Sonrakı ölçülmə***

Sonrakı ölçülmə məqsədilə maliyyə aktivləri dörd kateqoriyaya təsnifləşdirilir:

- Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Məcmu gəlirləri və zərərləri yenidən bölüşdürməklə DMG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (borc alətləri);
- Uçotdan çıxarılanda məcmu gəlirləri və zərərləri yenidən bölüşdürmədən DMG vasitəsilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri);
- Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivləri.

***Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri)***

Bu kateqoriya Cəmiyyətə daha uyğundur.

Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Cəmiyyət maliyyə aktivini amortizasiya olunmuş dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı müqavilə üzrə pul vəsaitlərini toplamaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.



tgs AZERBAIJAN Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Maliyyə aktivləri (davamı)**

***Sonrakı ölçülmə (davamı)***

***Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri (borc alətləri) (davamı)***

Amortizasiya olunmuş dəyərlə maliyyə aktivləri sonradan Effektiv Faiz Dərəcəsi (EFD) metodundan istifadə etməklə ölçülür və dəyərsizləşmə hesablanır. Gəlir və zərərlər mənfəət və ya zərərdə aktiv uçotdan çıxarılanda, dəyişiklik ediləndə və ya dəyərsizləşəndə tanınır.

Cəmiyyətin bütün maliyyə aktivləri amortizasiya olunmuş dəyərlə ölçülür.

Aşağıdakı hər iki şərt yerinə yetirilərsə, Cəmiyyət borc alətlərini DMG ilə ədalətli dəyərlə ölçməlidir:

- Maliyyə aktivi biznes modeli çərçivəsində və onlarla bağlı həm müqavilə üzrə pul vəsaitlərini toplamaq, həm də satılmaq məqsədilə saxlanılır; və
- Maliyyə aktivi üzrə müqavilə şərtləri müəyyən olunmuş tarixlərdə qalan əsas məbləğ üzrə əsas vəsaitlərdən və faizdən ibarət olan pul vəsaitlərinin yaranmasına səbəb olur.

DMG ilə ədalətli dəyərlə borc alətləri üçün faiz gəliri, xarici valyutanın yenidən qiymətləndirilməsi və dəyərsizləşmə zərərləri və ya qaytarmalar mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda tanınır və amortizasiya hesablanmış dəyərlə maliyyə aktivləri ilə eyni qaydada hesablanır. Ədalətli dəyərdə qalan dəyişikliklər DMG ilə tanınır. Uçotdan çıxarılanda DMG-də tanınmış məcmu ədalətli dəyərdə dəyişiklik mənfəət və ya zərərə yenidən bölüşdürülür.

Cəmiyyətin DMG ilə ədalətli dəyərlə borc alətləri mövcud deyil.

***DMG ilə ədalətli dəyərlə maliyyə aktivləri (kapital alətləri)***

İlkin tanınmada Cəmiyyət 32 saylı “Maliyyə alətləri: Təqdimatı” adlı MUBS əsasında kapital tərifinə uyğun olan bəzi kapital investisiyalarını ticarət üçün saxlanılan alətlər kimi deyil, kapital alətləri kimi təsnif etmək üçün yekun seçim edə bilər. Belə təsnifat alətlər üzrə fərdi şəkildə müəyyən edilir.

Bu kapital alətləri üzrə gəlir və zərərlər heç zaman mənfəət və ya zərərə aid edilmir. Ödəmə hüququ müəyyən ediləndə, dividendlər mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda digər gəlir kimi tanınır. Lakin Cəmiyyət alətin dəyərinin bir hissəsinin qaytarılması olan belə daxilolmalardan faydalanırsa, belə gəlirlər DMG-də tanınır. DMG vasitəsilə ədalətli dəyərlə kapital alətləri üzrə dəyərsizləşmənin qiymətləndirilməsi aparılmır.

***Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri***

Cəmiyyətin saxladığı ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivlərinə ticarət üçün saxlanılan maliyyə aktivləri, ilkin tanınmada ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri və ya ədalətli dəyərlə ölçülməsi mütləq olan aktivlər daxildir.

Yaxın zamanda satış və ya yenidən alış məqsədi ilə əldə olunarsa, maliyyə aktivləri ticarət üçün saxlanılan aktivlər kimi təsnif olunur. Effektiv hecinq alətləri kimi təyin olunmayan törəmə alətlər, o cümlədən ayrılmış əlaqədar törəmə alətlər də satış üçün saxlanılan aktivlər kimi təsnif olunur. Yalnız əsas məbləğ və faizlərin ödənilməsini təşkil etməyən pul vəsaitlərinin hərəkətini yaradan maliyyə aktivləri, biznes modeldən asılı olmayaraq, mənfəət və ya zərərdə ədalətli dəyərlə təsnifləşdirilir. Borc alətlərinin amortizasiya hesablanmış dəyərlə və ya DMG vasitəsilə ədalətli dəyərlə təsnifləşdirilməsi üçün yuxarıda təsvir edilən meyarlara baxmayaraq borc alətləri, bununla uçot uyğunsuzluğu aradan qaldırılar və ya əhəmiyyətli dərəcədə azaldılarsa, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri kimi təyin edilə bilər.


tgs AZERBAIJAN
Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Maliyyə aktivləri (davamı)**

***Sonrakı ölçülmə (davamı)***

***Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri (davamı)***

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə aktivləri maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərlə tanınır, ədalətli dəyərdə xalis dəyişikliklər isə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda tanınır.

Hibrid müqavilənin tərkib hissəsi olan, maliyyə öhdəliyini və ya qeyri-maliyyə əsas müqaviləni ehtiva etdirən asılı törəmə alət, aşağıdakı hallarda əsas müqavilədən ayrılır və ayrıca alət kimi uçota alınır: iqtisadi xüsusiyyətlər və risklər əsas müqavilə ilə sıx əlaqəli deyildir və hibrid müqavilə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilməyən alət kimi ölçülmür. Müqavilə əsasında tələb olunacaq pul vəsaitlərinin hərəkətini əhəmiyyətli dərəcədə dəyişən müqavilənin şərtlərində dəyişiklik olanda və ya maliyyə aktivi ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən aktivlər kateqoriyasından xaric yenidən təsnifləşdiriləndə yenidən qiymətləndirmə aparılır.

Maliyyə aktivinə dair əsas müqaviləni ehtiva etdirən hibrid müqavilə daxilində asılı törəmə alət ayrıca uçota alınmır. Maliyyə aktivi, asılı törəmə alətlə birlikdə, tam şəkildə ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks etdirilən maliyyə aktivi kimi təsnifləşdirilməlidir.

***Uçotdan çıxarma***

Maliyyə aktivi (və ya müvafiq hallarda maliyyə aktivinin bir hissəsi və ya analoji maliyyə aktivləri Cəmiyyətin bir hissəsi) aşağıdakı hallarda uçotdan (yəni Cəmiyyətin maliyyə vəziyyəti haqqında hesabatından) çıxarılır:

- Aktivdən pul vəsaitlərini əldə etmək hüquqlarının müddəti başa çatmışdır;
- Cəmiyyət özünün aktivdən pul vəsaitlərini almaq hüquqlarını üçüncü tərəfə köçürmüş və ya üzərinə aktivdən pul vəsaitlərini “tranzit” razılaşması əsasında tam məbləğdə və çox yubanmadan ödəmək öhdəliyini götürmüşdür; və ya Cəmiyyət: (a) aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş; (b) aktiv üzrə risk və səmərələrin böyük hissəsini nə köçürmüş, nə də özündə saxlamış, lakin aktiv üzrə nəzarət hüququnu köçürmüşdür.

Cəmiyyət aktivdən pul vəsaitlərini almaq hüququnu köçürdükdə və ya “tranzit” razılaşmasına qoşulduqda, mülkiyyət hüququ ilə bağlı risk və faydaları saxlayıb-saxlamadığını və nə dərəcədə saxladığını qiymətləndirir. Cəmiyyət nə aktiv üzrə risk və səmərələrin böyük hissəsini köçürmüş, nə də özündə saxlamışdırsa, nə də aktiv üzrə nəzarət hüququnu köçürmüşdürsə, aktiv Cəmiyyətin həmin aktivdə davam edən iştirakı həddində əks etdirilir. Bu halda Cəmiyyət əlaqəli öhdəliyi də tanıyır. Köçürülmüş aktiv və əlaqəli öhdəlik Cəmiyyətin saxladığı hüquq və öhdəlikləri əks etdirən əsaslarla ölçülür.

Aktivdə iştirakın köçürülmüş aktiv üzrə zəmanət formasında davam etməsi aktivin ilkin balans dəyəri və Cəmiyyətdən tələb oluna biləcək maksimal ödəniş məbləğindən daha az olanı ilə ölçülür.

***Maliyyə aktivlərinin dəyərsizləşməsi***

Cəmiyyət ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunmayan bütün borc alətləri üçün gözlənilən kredit zərərləri (GKZ) üçün ehtiyatı tanıyır. GKZ müqaviləyə uyğun olaraq ödəniləcək müqavilədə nəzərdə tutulan pul vəsailətinin hərəkəti ilə Cəmiyyətin alınmasını gözlədiyi bütün pul vəsaitlərinin hərəkəti arasında fərqi ilkin effektiv faiz dərəcəsinə yaxın dərəcə ilə diskontlaşdırmaqla müəyyən edilir.



tgs AZERBAIJAN Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Maliyyə aktivləri (davamı)**

***Maliyyə aktivlərinin dəyərsizləşməsi(davamı)***

GKZ iki mərhələdə müəyyən edilir. İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artmayan kredit öhdəlikləri üçün GKZ növbəti 12 aylıq dövr ərzində mümkün olan defolt hadisəsindən irəli gələn kredit zərərləri üçün ayrılır (12 aylıq GKZ). İlkin tanınmadan sonra kredit riski əhəmiyyətli artan kredit öhdəlikləri üzrə kredit ehtiyatı aktivin qalan müddəti ərzində yaranması gözlənilən kredit zərərlərinə (aktivin müddəti ərzində gözlənilən kredit zərəri və ya AMəGKZ) əsaslanır.

Ticarət debitor borcları üçün Cəmiyyət GKZ-nin hesablanmasında sadələşdirilmiş yanaşma tətbiq edir.

Beləliklə, Cəmiyyət kredit riskində dəyişiklikləri izləmir, əvəzinə hər hesabat tarixində AMəGKZ əsasında kredit zərərini tanıyır.

DMG ilə ədalətli dəyərlə borc alətləri üçün Cəmiyyət aşağı kredit riskinin sadələşdirilməsini tətbiq edir. Hər bir hesabat tarixində Cəmiyyət lazımsız xərc və ya səy sərf etmədən əldə edilə bilən bütün əsaslı və təsdiqlənən məlumatlardan istifadə edərək borc alətinin aşağı kredit riskinə məruz qalıb-qalmadığını qiymətləndirir. Belə qiymətləndirmə apararkən Cəmiyyət borc alətinin daxili kredit reytinqini yenidən qiymətləndirir. Bundan əlavə, Cəmiyyət müqavilə ödənişləri 90 gündən çox gecikdiriləndə kredit riskində əhəmiyyətli artımın mövcud olduğunu hesab edir.

Müqavilə üzrə qalan məbləğlərin tam şəkildə Cəmiyyətin saxladığı hər hansı kredit təminatları nəzərə alındıqdan əvvəl əldə edilə bilməsi ehtimalının zəif olduğuna işarə edən daxili və ya xarici məlumat mövcud olduğu təqdirdə maliyyə aktivi üzrə defoltun baş verdiyi hesab edilə bilər. Maliyyə aktivi müqavilə ilə nəzərdə tutulmuş pul vəsaitlərinin hərəkətinin bərpa ediləcəyi əsaslı olaraq gözlənilməyəndə silinir.

**Maliyyə öhdəlikləri**

***İlkin tanınma və ölçmə***

Maliyyə öhdəlikləri ilkin tanınma zamanı, müvafiq olaraq, ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri, kreditlər və borc öhdəlikləri və ya effektiv hecinqdə hecinq aləti kimi təyin olunmuş törəmə alətləri kimi təsnif edilir.

Maliyyə öhdəlikləri ilkin olaraq ədalətli dəyərlə tanınır və kreditlər, borclar və kreditor borcları halında birbaşa aid edilən əməliyyat xərcləri çıxılır. Cəmiyyətin maliyyə öhdəliklərinə ticarət və digər kreditor borcları,
müddətli borclar daxildir.

***Sonrakı ölçmə***

Maliyyə öhdəliklərinin ölçülməsi onların aşağıda göstərilən təsnifatından asılıdır:

***Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri***

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri və ticarət üçün saxlanılan maliyyə öhdəlikləri və ilkin tanınmada Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi təyin edilmiş maliyyə öhdəlikləri daxildir.



tgs AZERBAIJAN
Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Maliyyə öhdəlikləri (davamı)**

***Sonrakı ölçmə(davamı)***

***Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri (davamı)***

Maliyyə öhdəlikləri yaxın zamanda geri alınmaq məqsədilə qəbul edilirsə ticarət üçün saxlanılan öhdəliklər kimi təsnifləşdirilir. Bu kateqoriyaya eyni zamanda 9 saylı MHBS-də müəyyən edildiyi qaydada hecinq münasibətlərində hecinq aləti kimi təyin olunmayan törəmə maliyyə alətləri daxildir. Ayrılmış əlaqəli törəmə alətlər də effektiv hecinq aləti kimi təyin edilmədiyi hallarda ticarət üçün saxlanılan alətlər kimi təsnifləşdirilir.

Ticarət üçün saxlanılan öhdəliklər üzrə gəlir və ya zərərlər mənfəət və ya zərər haqqında hesabatda tanınır.

İlkin tanınma tarixində ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri kimi tanınmış öhdəliklər ilkin tanınma tarixində və yalnız 9 saylı MHBS-də nəzərdə tutulan meyar qarşılananda təyin olunur. Cəmiyyət hər hansı maliyyə öhdəliyini ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan öhdəlik kimi təyin etməmişdir.

*Kreditlər və borc öhdəlikləri*

Bu kateqoriya Cəmiyyət üçün daha uyğundur. İlkin tanınmadan sonra faiz hesablanan kreditlər və borc öhdəlikləri daha sonra effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya hesablanmış dəyərlə qiymətləndirilir. Gəlirlər və zərərlər mənfəət və ya zərərdə öhdəliklərin tanınması dayandırıldıqda, eləcə də amortizasiya prosesi vasitəsilə əks etdirilir. Amortizasiya hesablanmış dəyər satınalma zamanı tətbiq edilən endirimi və ya əlavə qiyməti və effektiv faiz dərəcəsinin ayrılmaz hissəsi olan haqq və xərcləri nəzərə almaqla hesablanır. EFD-nin amortizasiyası mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda maliyyə xərclərinə daxil edilir. Bu kateqoriya faiz hesablanan kreditlərə və borc öhdəliklərinə tətbiq edilir.

***Tanınmanın dayandırılması***

Maliyyə öhdəliyinin tanınması bu halda dayandırılır ki, həmin öhdəlik ya dayandırılmış, ya ləğv olunmuş, ya da müddəti bitmiş olsun. Əgər mövcud maliyyə öhdəliyi həmin kreditor qarşısında fərqli şərtlərlə başqa öhdəliklə əvəz edilərsə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirilərsə, bu cür əvəzedilmə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq balans dəyərlərindəki fərq mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda öz əksini tapır.

**Maliyyə alətlərinin qarşılıqlı əvəzləşdirilməsi**

Cəmiyyətin maliyyə aktivləri və maliyyə öhdəliklərinin tanınmış məbləğlərini qarşılıqlı əvəz etmək üçün qanuni hüquqa malik olduğu və ya hesablaşmanı xalis əsasda həyata keçirmək, ya da eyni vaxtda aktivi reallaşdırmaq və öhdəliyi yerinə yetirmək niyyəti olduğu halda, qarşılıqlı əvəzləşdirir və maliyyə vəziyyəti haqqında hesabatda xalis məbləğ kimi təqdim edir.

**Ticarət və digər debitor borcları**

Ticarət və sair debitor borcları ilk öncə ədalətli dəyərlə tanınır və sonra effektiv faiz metodundan istifadə etməklə, gözlənilən kredit zərərləri üzrə ehtiyatı çıxaraq, amortizasiya hesablanmış dəyərlə ölçülür. Debitor borcları Cəmiyyətin müəyyən şərtsiz asılı olaraq ödəniş almaq hüququndan ibarətdir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri**

Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərinə kassada olan nağd pul, bank hesablarındakı tələb edilənədək əmanət və ilkin ödəmə müddəti üç ay və ya az olan digər qısamüddətli və yüksək likvidli investisiyalar daxildir.

**İnvestisiya mülkiyyəti**

İnvestisiya mülkiyyəti əməliyyat xərcləri daxil olmaqla ilkin dəyərlə qiymətləndirilir. İlkin tanınma sonrasında investisiyaların ədalətli dəyəri hesabat tarixindəki bazar şərtlərini özündə əks etdirir. İnvestisiya mülkiyyətinin ədalətli dəyərində dəyişikliklərdən yaranan gəlirlər və ya itkilər müvafiq vergi təsiri daxil olmaqla, yaranan dövrdə mənfəət və zərər hesabına daxil edilir. Ədalətli dəyərlər Beynəlxalq Qiymətləndirmə Standartları Komitəsi tərəfindən təklif olunan qiymətləndirmə modelini tətbiq edən akkreditə olunmuş xarici müstəqil qiymətləndirici tərəfindən illik qiymətləndirmə əsasında müəyyən edilir.

İnvestisiya mülkiyyətləri gələcəkdə heç bir iqtisadi fayda gətirməyəcəkləri ehtimal olunduqda onların birdəfəlik silinməsi və ya satılması halında balansda tanınmır.Xalis silinmə gəlirləri və aktivin balans dəyəri arasındakı fərq tanınmanın dayandırılması zamanı mənfəət və ya zərərlə tanınır.
Köçürmələr yalnız investisiya mülkiyyətinin istifadəsində dəyişiklik olduqda edilir. İnvestisiya mülkiyyətindən sahibkarlıq fəaliyyəti ilə məşğul olunan əmlaka köçürülmə zamanı mülkiyyət dəyişiklik tarixinə olan ədalətli dəyərlə uçota alınır. Aktivin investisiya mülkiyyətindən sahibkarın əmlakına keçməsi zamanı bu əməliyyatla bağlı müvafiq uçot üçün nəzərdə tutulmuş xərc mülkiyyətə dəyişiklik tarixinə olan ədalətli dəyər hesab olunur. Əgər sahibkarın əmlakı investisiya mülkiyyətinə çevrilsə , Cəmiyyət istismar tarixinə qədər bu mülkiyyəti əmlak, tikili və avadanlıqların siyasətinə uyğun olaraq mülkiyyəti hesab edir.

**Əsas istismar və ya təmir xərcləri**

Əsas istismar və ya təmir xərcləri əvəzləşdirilən aktiv və ya aktivin hissələri, yoxlama xərcləri və əsaslı təmir xərclərindən ibarətdir. Aktiv və ya aktivin bir hissəsi ayrıca olaraq amortizasiya olunduqda və cari olaraq silindikdə və ya əvəzləşdirildikdə və həmin aktivlə bağlı gələcək iqtisadi gəlirlərin Cəmiyyətə axını ehtimal olunduqda, xərclər kapitallaşdırıllır. Aktivin hissəsi bir komponent olaraq ayrıca nəzərə alınmadıqda, əvəvzləşdirmə dəyəri dərhal silinən əvəzləşdirilən aktivlərin qalıq dəyərini qiymətləndirmək üçün istifadə olunur. Əsas saxlama proqramları ilə bağlı təftiş xərcləri kapitallaşdırılır və növbəti yoxlama dövrü ərzində amortizasiya olunur. Bütün digər istismar xərcləri çəkilmiş xərclər kimi hesablanır.

**Əmlak, tikili və avadanlıqlar**

Əmlak, tikili və avadanlıqlar tələb olunduğu hallarda toplanmış amortizasiya və ehtiyatlar üzrə ayırmalar çıxılmaqla faktiki dəyər əsasında uçota alınır.

***Köhnəlmə və amortizasiya***

Əmlak, tikili və avadanlıqlar üzrə köhnəlmə düz xətt metoduna, yəni əsas vəsaitlərin aşağıda göstərilən təxmini faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini və ya yenidən qiymətləndirilmiş dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

| | |
|---|---|
| Qurğu və avadanlıqlar | 4-5 il |
| Digər avadanlıqlar | 4-5 il |
| Kompüter və rabitə avadanlıqları | 4-5 il |
| Nəqliyyat vasitələri | 4-5 il |
| Quraşdırılmamış avadanlıqlar | 5-7-il |

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Əmlak, tikili və avadanlıqlar (davamı)**

***Köhnəlmə və amortizasiya (davamı)***

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra, Cəmiyyət tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Cəmiyyət aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfra bərabər olur. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

**Mal-material ehtiyatları**

Mal-material ehtiyatları maya dəyəri ilə xalis satış dəyərindən ən aşağı olan dəyərdə qeydə alınır. Mal-material ehtiyatlarının maya dəyəri orta çəki metodu ilə müəyyən edilir. Hazır məhsul və başa çatdırılmamış tikinti işlərinin maya dəyərinə borc vəsaitləri üzrə xərclər istisna olmaqla, xammal, birbaşa işçi qüvvəsi, digər birbaşa xərclər və müvafiq istehsal xərcləri (normal iş həcminə əsasən) daxildir. Xalis satış dəyəri işin başa çatdırılma və satış xərcləri çıxılmaqla, fəaliyyətin adi gedişində təxmin edilən satış qiymətidir.

**Tikilməkdə olan mal-material ehtiyatı**

Əməliyyat zamanı əldə edilmiş və ya satış üçün tikilən əmlak ma-material mülkiyyəti kimi saxlanılır və maya dəyəri və xalis satış dəyəri arasında ən aşağı olan dəyərlə qeydə alınır. Maya dəyərinə daxildir:

- Torpaq üçün alış və kirayə haqqı
- Tikinti üçün podratçılara ödənən məbləğlər
- Planlaşdırma və dizayn xərcləri, sahə hazırlığı xərcləri, hüquqi xidmətlər üçün peşəkar haqlar, əmlak vergisi vergisi, tikinti xərcləri və digər müvafiq xərclər

Daşınmaz əmlakın satışı üzrə satış və marketinq agentlərinə ödənilən geri qaytarılmayan komissiyalar ödənilən zaman xərcə silinir.

XSD hesabat tarixində bazar qiymətləri əsasında və pulun vaxt dəyərinə görə diskontlaşdırılmış biznesin adi seyrində təxmin edilən satış qiyməti, çıxılsın tamamlama və satış üçün təxmin edilən xərclər ilə hesablanır. Mənfəət və zərər haqında hesabatda mal-material əmlakının silinməsindən tanınan dəyər satılan əmlaka aid xüsusi xərclərə və satılan əmlakın nisbi ölçüsünə əsasən hər hansı qeyri-spesifik xərclərin ayrılmasına istinadən müəyyən edilir.

**Avans ödənişləri**

Avans ödənişləri zərər üzrə ehtiyat çıxılmaqla ilkin dəyərlə tanınır. Avans ödənişləri ilə bağlı mal və ya xidmətlərin bir ildən sonra əldə ediləcəyi ehtimal olunduqda və ya ilkin tanınma zamanı aktivlə bağlı avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edildikdə avans ödənişləri uzunmüddətli aktiv olaraq təsnif edilir. Aktivlərin əldə olunması üçün ödənilmiş avanslar Cəmiyyət aktivin nəzarətini ələ keçirdikdən sonra aktivin qalıq dəyərinə köçürülür və aktivlə bağlı gələcək iqtisadi səmərələrin Cəmiyyətə daxil olacağı ehtimal olunur. Avans ödənişlərinə aid olan mal və ya xidmətlər əldə olunan zaman digər əməliyyatlar üzrə avans ödənişlər mənfəət və ya zərər hesablarına silinir. Avans ödənişləri ilə bağlı aktivlər, mal və ya xidmətlərin əldə olunmadığına dair göstərici olduqda, avans ödənişlərin qalıq dəyəri müvafiq olaraq silinir və müvafiq dəyərsizləşmə zərəri mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda qeydə alınır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Kreditor və digər borcları**

Kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı qeydə alınır. Kreditor borcları ilkin olaraq ədalətli dəyərdə uçota alınır və sonradan effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə ölçülür.

**Müddətli borc öhdəlikləri**

Borc öhdəlikləri əvvəlcə borc öhdəlikləri ilə bağlı emissiya xərcləri çıxılmaqla, əldə edilmiş daxilolmaların ədalətli dəyərində qeydə alınır. Borc öhdəlikləri effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

Əsas vəsaitlərin tikintisini maliyyələşdirmək üçün alınmış borc öhdəlikləri üzrə faiz xərcləri aktivi istifadəyə yararlı vəziyyətə gətirmək üçün onun tikintisinin tamamlanması və ya hazırlanması üçün tələb olunan dövr ərzində kapitallaşdırılır. Borc öhdəlikləri üzrə digər xərclər mənfəət və ya zərərdə əks etdirilir.

**İcarə müqavilələri**

Cəmiyyət müqavilənin icarə müqaviləsi olub-olmaması və ya icarə kompenentinə sahib olub-olmaması, yəni müəyyən bir haqq qarşılığında müəyyən müddət ərzində müəyyən aktivdən istifadə hüququnun olması faktını başlanğıc tarixində müəyyənləşdirir.

*Cəmiyyət icarəçi qismində*

Cəmiyyət qısa müddətli icarələr və az dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanınma və ölçülmə metodundan istifadə edir. Cəmiyyət icarə üzrə ödənişləri etmək üçün icarə öhdəlikləri və müvafiq aktivdən istifadə hüququnu təzahür edən aktivdən istifadə hüququ tanıyır.

*i) Aktivdən istifadə hüququ*

Şikət icarənin başlanğıc tarixində (yəni müvafiq aktivin istifadəyə hazır olduğu tarix) aktivdən istifadə hüququ tanıyır. Aktivdən istifadə hüququ yığılmış amortizasiya və dəyərsizləşmə çıxılmaqla maya dəyəri ilə uçota alınır və icarə öhdəliklərinin yenidən qiymətləndirilməsi üzrə düzəlişlərə məruz qalır. Aktivdən istifadə hüququnun maya dəyərinə tanınan icarə öhdəliklərinin dəyəri, ilkin birbaşa xərclər və icarə üstünlükləri çıxılmaqla başlanğıc tarixində və ya ondan əvvəl edilmiş icarə ödənişləri daxildir. Aktivdən istifadə hüququ icarə müddəti və ya aktivin ehtimal edilən ömür müddətindən daha qısa olan dövr üzrə düzxətli amortizasiya metoduna əsasən amortizasiya olunur.

Əgər icarəyə götürülmüş aktiv üzərində mülkiyyət hüququ icarə müddətinin sonunda Cəmiyyətə keçirsə və ya maya dəyəri özündə alış opsiyonundan istifadəni ehtiva edirsə, amortizasiya aktivin ehtimal edilən ömür müddəti üzrə aparılır.

*ii) İcarə öhdəlikləri*

İcarənin başlanğıc tarixində Cəmiyyət icarə müddəti ərzində ediləcək icarə ödənişlərinin indiki dəyəri qədər icarə öhdəliyi tanıyır. İcarə ödənişlərinə icarə üstünlükləri çıxılmaqla sabit ödənişlər, indeks və ya dərəcədən asılı olan dəyişən icarə ödənişləri və qalıq dəyər qarantiyası kimi ödənilməsi ehtimal edilən məbləğlər daxildir. İcarə ödənişlərinə həmçinin Cəmiyyət tərəfindən istifadə edilməsi əminliklə bilinən alış opsiyonu qiyməti və icarə müqaviləsinə xitam vermək səbəbindən veriləcək cərimələr də daxildir. İndeks və ya dərəcədən asılı olmayan dəyişən icarə ödənişləri (mal-material istehsalı üçün edilməyibsə) hadisənin baş verdiyi dövrdə xərc kimi tanınır.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**İcarə müqavilələri (davamı)**

*ii) İcarə öhdəlikləri (davamı)*

İcarə ödənişlərinin indiki dəyərini hesablayarkən Cəmiyyət icarənin başlanğıc tarixində özünün borc alma faizindən istifadə edir, çünki icarədə ehtiva edilən faiz dərəcəsini müəyyən etmək mümkün deyil. Başlanğıc tarixindən sonra faiz toplanmasını əks etdirmək üçün icarə öhdəlikləri məbləği artır və edilmiş icarə ödənişlərini əks etdirmək üçün azalır. Əlavə olaraq, icarə şərtlərində, ödənişlərində (məsələn: belə icarə ödənişlərini müəyyən etmək üçün istifadə edilən indeks və ya dərəcələrdə dəyişiklik nəticəsində yaranan gələcək ödənişlərdə dəyişikliklər) və ya müvafiq aktivi alış opsiyonunda dəyişiklik olduğu təqdirdə icarə öhdəliklərinin qalıq dəyərinə yenidən baxılır.

*iii) Qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi*

Cəmiyyət əmlak və avadanlıqların qısa müddətli icarəsinə qısa müddətli icarənin tanınması üzrə azad olmanı tətbiq edir (məsələn: başlanğıc tarixindən etibarən 12 ay və daha az dövrü əhatə edən və alış opsiyonu olmayan icarələr). Cəmiyyət həmçinin aşağı dəyərli sayılan ofis avadanlıqlarının icarəsinə aşağı dəyərli aktivlərin icarəsinin tanınması üzrə azad olmanı tətbiq edir. Qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi üzrə icarə ödənişləri icarə müddəti boyu düzxətli metod ilə xərc kimi tanınır. Cəmiyyətin bütün icarə müqavilələri qısa müddətli olduğundan Cəmiyyət bütün icarə müqavilələri üzrə azad olmanı tətbiq etmişdir.

**Alınmış avanslar**

Müştərilərdən alınan avanslar əvvəlcə öhdəlik kimi tanınacaq, lakin vaxt keçdikcə və / və ya Cəmiyyətin adi fəaliyyəti nəticəsində aktiv olacağı gözlənilir. Müştərilərdən alınan avanslar əvvəlcə alınan əvəzin ədalətli dəyəri və onlarla əlaqəli əməliyyat xərcləri ilə tanınır və sonradan amortizasiya olunmuş maya dəyəri ilə ölçülür.

**Ehtiyat**

Cəmiyyət keçmiş hadisələr nəticəsində cari hüquqi və ya əsaslanmış öhdəliyə malik olduqda, öhdəliyin yerinə yetirilməsi üçün iqtisadi səmərə yaradan ehtiyatların azalma ehtimalı olduqda və öhdəlik məbləği etibarlı şəkildə qiymətləndirildikdə uçota alınır. Ehtiyat kimi tanınan məbləğ hesabat dövrünün sonunda müvafiq risklər və qeyri-müəyyənliklər də nəzərə alınmaqla cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan məbləğin təxmini göstəricisidir. Ehtiyatı hesablayarkən cari öhdəliyi yerinə yetirmək üçün tələb olunan pul vəsaitlərinin təxminindən istifadə edilirsə, ehtiyatın qalıq dəyəri bu pul vəsaitlərinin cari dövrə olan diskontlaşdırılmış dəyərinin cəminə bərabərdir (pulun vaxt dəyərinin əhəmiyyət kəsb etdiyi hallarda). Ehtiyatın qarşılanması üçün tələb edilən iqtisadi faydaların tam və ya qismən üçüncü şəxslərin hesabına geri qaytarılması gözlənilirsə, debitor borc aktiv kimi yalnız o halda tanınır ki, üçüncü tərəfin kompensasiya ödəməsi ehtimalı var və bu məbləğ etibarlı şəkildə təxmin edilə bilər.

**Dividendlər**

Dividendlər elan edildikləri dövrdə kapitalda əks etdirilir. Hesabat dövrünün başa çatmasından sonra, lakin maliyyə hesabatlarının imzalanmasından əvvəl elan edilmiş dividendlər haqqında məlumat “hesabat dövründən sonra baş vermiş hadisələr” Qeydində açıqlanır. Mənfəətdən dividendlər və digər ödənişlər Cəmiyyətin yerli qanunvericiliyə uyğun hazırlanmış maliyyə hesabatlarına əsasən həyata keçirilir. Azərbaycan qanunvericiliyində cari ilin xalis mənfəəti bölüşdürmənin əsası kimi müəyyən edilir.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası həmin müəssisənin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin hesabat valyutası Azərbaycan Respublikasının milli valyutası olan AZN-dir.

Monetar aktiv və öhdəliklər, fəaliyyət göstərdiyi ölkənin Mərkəzi Bankının müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən hər bir müəssisənin funksional valyutasına çevrilir. Bu cür əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və MB-nin ilin sonuna olan rəsmi valyuta məzənnəsi ilə monetar aktiv və öhdəliklərin hər bir müəssisənin funksional valyutasına çevrilməsi nəticəsində yaranan müsbət və mənfi məzənnə fərqləri mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatında qeydə alınır.

İlin sonuna qüvvədə olan valyuta məzənnəsi ilə yerli valyutaya çevrilmə qeyri-monetar maddələrə, o cümlədən pay alətlərinə tətbiq edilmir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyər üzrə yenidən qiymətləndirmə nəticəsində gəlir və ya xərclərin bir hissəsi kimi qeydə alınır.

**Əlaqəli tərəflər**

Əlaqəli tərəflər haqqında məlumat 24 saylı “Əlaqəli tərəflər barədə açıqlamalar” adlı MUBS-yə uyğun olaraq açıqlanır.

Əlaqəli tərəflər öz aralarında əlaqəli olmayan tərəflərin apara bilmədiyi əməliyyatları həyata keçirə bilər. Bununla yanaşı, əlaqəli tərəflər arasında aparılan əməliyyatların şərtləri, müddətləri və məbləğləri əlaqəli olmayan tərəflər arasında aparılan əməliyyatlarla eyni olmaya bilər. Əlaqəli tərəflərlə aparılan əməliyyatların xarakterinə görə onlar kommersiya cəhətdən müstəqil tərəflər arasında həyata keçirilən əməliyyatların şərtlərinə uyğun hesab edilə bilməz.

**Gəlirlər**

15 saylı MHBS, müştərilərlə bağlanmış müqavilələr üzrə yaranan gəlirləri hesablamaq üçün beş mərhələli bir model təqdim edir. Gəlirlər, 15 saylı MHBS-yə uyğun olaraq Cəmiyyətin mal və xidmətlərin müştəriyə ötürülməsi hüququ üzrə ehtimalı əks etdirən məbləğdə tanınır. Müştərilərlə olan müqavilələrdən əldə edilən gəlirlər, Cəmiyyətin müştəriyə vəd edilmiş mal və ya xidmətin ötürülməsi yolu ilə icra öhdəliyini yerinə yetirdikdə tanınır. Mal və ya xidmət, müştəri həmin mal və ya xidmətin nəzarəti hüququna malik olduğu zaman ötürülür. Gəlirlər ƏDV və hər hansı endirimlər üzrə göstərilir.

Cəmiyyət müştəriyə vəd edilmiş mal və ya xidmətin müddət ərzində ötürülməsi, eyni zamanda müqavilə üzrə icra öhdəyini müddət ərzində yerinə yetirilməsi və gəlirin müddət ərində tanınması aşağıdakı meyarlardan biri yerinə yetirildiyi təqdirdə həyata keçirir:

- Cəmiyyətin icra öhdəliyinin yerinə yetirilməsi ilə müştərinin faydalanması eyni zamanda baş verdikdə;
- Cəmiyyət fəaliyyəti nəticəsində müştərinin nəzarəti altında olan hər hansı bir aktivi yaradır və ya təkmilləşdirir;
- Cəmiyyətin fəaliyyəti Cəmiyyətə alternativ istifadəsi olan bir aktiv yaratmır və bu günə qədər fəaliyyətinə görə ödəmə hüququna malikdir.

Müddət ərzində yerinə yetirilən hər bir icra öhdəliyi üçün gəlir həmin icra öhdəliyinin tam yerinə yetirilməsi istiqamətində irəliləyişin ölçülməsi yolu ilə tanınmalıdır.


tgs AZERBAIJAN
Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Digər gəlirlər**

Əsas fəaliyyət növləri olmayan əməliyyatlardan digər gəlirlərə daxil olunur. Digər gəlirlər hesablama metodu əsasında uçota alınır.

**Nizamnamə kapitalı**

Cəmiyyətin nizamnamə kapitalı hər birinin nominal dəyəri 1 AZN olan 1.000.000 səhmdən ibarətdir. Cəmiyyətin sahibləri və səhmdarları Nəbiyev Araz, Nəbiyev Fərid və Vəliyev Pərvizdir. Nizamnamə kapitalının həcmindəki dəyişikliklərin təsdiqlənməsi illik ümumi yığıncağın qərarı ilə həyata keçirilir.

**İşçilərə sərf olunan xərclər və müvafiq ayırmalar**

Əmək haqları, məvaciblər, Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar (misal üçün, səhiyyə və uşaq bağçası xidmətləri və ərzaq) Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Xərclər**

Xərclər mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda funksiyalarına görə əks etdirilir. Xərclərin xarakterinə uyğun kateqoriyaya ayrılması Cəmiyyəti əməliyyat funksiyasına əsaslanır.

**Mənfəət vergisi**

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş müvafiq qanunvericiliyinə uyğun olaraq göstərilmişdir Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə bilavasitə kapitalda qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlirlər haqqında hesabatda qeydə alınır.

Cari mənfəət vergisi, cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Mənfəət vergisindən başqa digər vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və passivlərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədilə onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır.Təxirə salınmış vergi qalıqları, balans tarixinə qüvvədə olan vergi dərəcələrinə əsasən müvafiq təxirə salınmış mənfəət vergisi öhdəliyi aktivi müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi aktivi vəya öhdəliyi ancaq bir müəssisədaxilində əvəzləşdirilə bilər.Təxirə salınmış vergi aktivi müvəqqəti fərqlərdən yaranan və eləcə də keçmiş illərdən gələn zərərdən yaranmış olan vergi aktivi ancaq o vaxt istifadə edilə vəya tanına bilər ki, gələcək illərdə Kooperativin gəlir əldə edəcəyi guman edilir.
Təxirə salınmış vergi aktivləri mövcud fərqlərin gələcək vergi mənfəətindən tutulması mümkün olacağı halda tanınır.

Təxirə salınmış mənfəət vergisi müvəqqəti fərqlərin bərpa vaxtına Kooperativ tərəfindən nəzarət olunması və müvəqqəti fərqlərin yaxın gələcəkdə dəyişilməsi ehtimalının mümkünlüyu istisna olmaqla şərik və törəmə müəssisələrə qoyulan investisiyalardan irəli gələn müvəqqəti fəqlərdən təmin olunur.

Təxirə salınmış mənfəət vergisi tamamilə tanınma və aktivlərin silinməsi öhdəliyinin təminatının sonrakı qiymətləndirilməsindən irəli gələn və mülkiyyət, tikili və avadanlıqların dəyəri ilə bağlı düzəlişlərdən əmələ gələn müvəqqəti fərqlər hesabına təmin olunur.



tgs AZERBAIJAN
Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**3. Əsas uçot siyasəti (davamı)**

**Əlavə Dəyər Vergisi**

Vergi orqanları satış və alış əməliyyatları üzrə əlavə dəyər vergisinin (“ƏDV”) xalis ödənilməsinə icazə verir.

*ƏDV üzrə kreditor borcu*

ƏDV üzrə kreditor borcu hesabat tarixində əvəzləşdirilmiş alışlar üzrə ƏDV-ni çıxmaqla, satış üzrə ƏDV məbləğidir. Çıxış və elan edilmiş ƏDV arasındakı fərq hesabat ayından sonra 20 gün ərzində dövlət büdcəsinə ödənilməlidir. Satışla əlaqəli əlavə dəyər vergisi müştərilərdən debitor borcları alındıqda vergi orqanlarına ödənilir. Hesabat tarixində əvəzləşdirilməmiş satışlar üzrə ƏDV həmçinin ƏDV üzrə kreditor borcuna daxildir. Debitor borclarının dəyərsizləşməsi üzrə ehtiyat yaradıldıqda, dəyərsizləşmə üzrə ehtiyat lazım olduqda ƏDV daxil olmaqla, debitor borcunun ümumi məbləğində qeydə alınır. ƏDV üzrə müvafiq təxirə salınmış öhdəlik vergi məqsədləri üçün debitor borcu silinənə qədər saxlanılır.

*Əvəzləşdirilən ƏDV*

Əvəzləşdirilən ƏDV hesabat tarixində əvəzləşdirilməmiş alışlara aiddir. Əvəzləşdirilən ƏDV alışlar üçün ödəniş aparıldıqda satışlar üzrə ƏDV ilə əvəzləşdirilə bilər. Əsas uçot siyasəti (davamı)

**ƏDV depozit hesabı**

Əlavə Dəyər Vergisi ("ƏDV") depozit hesabı sistemi Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 2008-ci ildə tətbiq edilmişdir. 01 yanvar 2008-ci il tarixindən Vergi Məcəlləsinə edilən dəyişikliklər əsasında ƏDV-nin geri qaytarılma məbləği vergi ödəyicisinin ƏDV depozit hesabına təqdim edilmiş ƏDV hesab-fakturalarına uyğun olaraq həyata keçirilən əməliyyatlar çərçivəsində ödənilmiş vergi məbləği hesab olunur.

Bu moduldan istifadə edərək vergi ödəyicisi ƏDV hesab-fakturalarında göstərilən ƏDV məbləğini başqa vergi ödəyicisinin ƏDV depozit hesabına ödəyir. Eyni zamanda, gömrük komitəsinə ödənilməli olan bütün vergi növləri və idxal əməliyyatları üzrə ƏDV üzrə dövlət büdcəsinə vergi öhdəlikləri vergi ödəyiciləri tərəfindən ƏDV depozit hesabı vasitəsilə ödənilə bilər. Ödənilmiş məbləğlər haqqında məlumat Vergilər Nazirliyi tərəfindən Baş Dövlət Xəzinədarlığına ("DXA"), sonra isə Azərbaycan Respublikasının Mərkəzi Bankına ("ARMB") ötürülür. ARMB Baş Xəzinədarlığın verdiyi məlumatlara əsasən, müvafiq yerli xəzinə orqanlarına məbləğlərin dəyişdirilməsini təmin edir. Vergilər Nazirliyi vergi ödəyicisinin şəxsi sənədlərində göstərilən məlumatlarda göstərilən məbləğlərin daxil edilməsini təmin edir. Mövcud sistem Vergilər Nazirliyinin Avtomatlaşdırılmış Vergi Məlumat Sistemi ilə əlaqələndirilir. Eyni zamanda, DXA və ARMB ilə onlayn məlumat mübadiləsi təşkil edildi.

ƏDV depozit hesabının tətbiqi ödənişlərin və ƏDV-nin bərpa olunan məbləğlərinin vaxtında izlənilməsinə imkan verir. Vergi borcu olan vergi ödəyiciləri yalnız bu məbləğləri dövlət büdcəsinə köçürə bilərlər. Vergi ödəyiciləri banklara getmədən dövlət büdcəsinə, digər vergi ödəyicilərinin sub hesablarına və gömrük komitəsinə depozit hesabı vasitəsilə ödəniş edə bilərlər. Vergilər Nazirliyi xüsusi proqram təminatından istifadə edərək depozit hesabı vasitəsilə həyata keçirilən bütün əməliyyatları avtomatik idarə edir.

ƏDV depozit hesabındakı qalıqların istifadəsi məhduddur və yalnız ƏDV və digər tətbiq olunan vergilərlə əlaqəli əməliyyatlar üçün istifadə edilə bilər.



tgs AZERBAIJAN
Timp
An independent member of TGS Global

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

**4. Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi**

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-in Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2024-cü il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad**

**3 saylı MHBS-yə edilmiş düzəliş**

2020-ci ilin may ayında MUBSŞ tərəfindən "Müəssisələrin birləşməsi" adlı 3 saylı MHBS-yə düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş "Maliyyə Hesabatlılığının Konseptual Əsasları"na istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları"na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı MUBS və ya "Təminatlar" adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial '2 gün' mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-in tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları"na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-in mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan istifadədən əvvəl daxilolmalar**

**16 saylı MUBS-yə edilən düzəlişlər**

2020-ci ilin may ayında, MUBSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən "Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl daxilolmalar" düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır.

**Ağır Şərtli Müqavilələr – Müqavilənin yerinə yetirilməsinə dair xərclər**

**37 saylı MUBS-yə edilən düzəlişlər**

2020-ci ilin may ayında, MUBSŞ, 37 saylı MUBS-a müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər "birbaşa əlaqəli xərc yanaşması"nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur.

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

## 5. Yeni uçot qaydaları

**"Maliyyə Alətləri" adlı 9 saylı MHBS**

**Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı**

MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, MUBSŞ 9 saylı MHBS-yə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

**"Sığorta müqavilələri" adlı 17 saylı MHBS**

2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-i əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-i tətbiq etməlidir.

Bu standart Cəmiyyətə şamil edilmir.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı MUBS və 2 saylı MHBS Metodik Sənədi**

2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı MBUS və "Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi" adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir.

Düzəlişlər müəssisələr üçün "əhəmiyyətli" uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların "əhəmiyyətli" uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

**Uçot təxminlərinin müəyyən edilməsi**

**8 saylı MUBS-yə edilən düzəlişlər**

2021-ci ilin fevral ayında MUBSŞ "uçot təxminləri" anlayışını təqdim edən 8 saylı MUBS-ə düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.



tgs AZERBAIJAN Timp
An independent member of TGS Global

## 5. Yeni uçot qaydaları (davamı)

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər**

**12 saylı MUBS-yə edilən düzəlişlər**

2021-ci ilin may ayında Şura 12 saylı MUBS-a uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı MUBS-a düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

## 6. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Cəmiyyət maliyyə hesabatlarında göstərilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir.Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

**Mənfəət vergisi aktivinin istifadəsi**

31 dekabr 2024-cü il tarixinə müvafiq olaraq, təxirə salınmış mənfəət vergisi aktivinin qalıq dəyəri 23.978.147 AZN (31 dekabr 2023-cü il: 9.664.252 AZN) təşkil etmişdir.

Cəmiyyətin rəhbərliyi gələcəkdə təxirə salınmış mənfəət vergisi aktivinin qalıq dəyərinin tam şəkildə istifadə olunacağına əmindir.

**Təxirə salınmış vergi aktivinin uçotu**

